BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2009

# NƏCİB FAZİL QISAKÜRƏYİN POEZİYASI

**Ə.A.RƏSULOV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə Türkiyənin XX əsrdə yetişdirdiyi böyük sənətkarlardan biri Nəcib Fazil Qısakürəyin (1905-1983) poeziyasının elmi-nəzəri təhlili verilir. Ustadın bütün şeirlərinin toplandığı «Çilə» kitabının təhlili əsasında N.Fazilin sənətkarlıq xüsusiyyətləri, çağdaş türk poeziyasında ədəbi hadisə sayılan yaradıcılığının ideya məzmununu və sənət anlayışının mahiyyətini təşkil edən islami metafizik-sufi fəlsəfəsi, simvolik mündəricəsi, rəmzi atributları müəyyənləşdirilir.*

Nəcib Fazil Qısakürək (1905-1983) Türkiyənin XX əsrdə yetişdirdiyi, keşməkeşli həyatı və ziddiyyətli ədəbi-bədii yaradıcılığı olan böyük sənətkarlardan biridir. Hələ gəncliyində ömrünün sonuna qədər fəxrlə daşıyacağı “Ustad” ləqəbi ilə şərəfləndirilən, şeirləri orta məktəb dərsliklərinə salınan şairin əsərləri sonralar sanki görməzlikdən gəlinmiş, öz ifadəsi ilə desək, “üzərinə sükut külü tökülmüşdür”. Vəfatından bir-neçə il əvvəl “Türkiyənin yaşayan ən böyük şairi” və “Şairlər sultanı” kimi fəxri adlarla mükafatlandırılsa da, bu gecikmiş diqqət onu evində hər an öz həbsini gözləyən guşənişin olmaqdan xilas edə bilməmişdir.

Sənətkarın irili-xırdalı səksənə yaxın kitabı işıq üzü görmüşdür. Bu kitablardan təxminən yarısı şeir, dram, nəsr, ədəbi portret, memuar və esse janrında qələmə alınmış ədəbi-bədii əsərlərdir. Digər yarısı dini, fəlsəfi və tarixi tədqiqatlar, bioqrafiyalar, publisistk məqalə və köşə yazılarının, siyasi-ideoloji-islami məzmunlu məruzə, çıxış və nitqlərinin toplandığı kitablardır.

Qələmini söz sənətinin müxtəlif janrlarında sınayan Nəcib Fazil, hər şeydən əvvəl, qüdrətli şair və istedadlı dramaturqdur. Bununla yanaşı, o, həm bir neçə roman və onlarla hekayə müəllifi kimi tanınan nasir, alovlu publisist və orijinal esseistdir. Nəcib Fazil öz ölkəsində idealist-metafizik filosof, islam mütəfəkkiri, jurnal naşiri, siyasi partiya funksioneri, islami ideyaları və təsəvvüf hikmətlərini təbliğ edən bəlağətli natiq kimi də məşhur olmuşdur. Ədib 30-cu illərin axırlarından etibarən ifrat mühafizəkarlığına, mistik islamçılığına, açıq dini-siyasi-ideoloji tutum və davranışlarına görə basqı və yasaqlar altında 40 il yaşamış, naşiri olduğu jurnallar, qurduğu cəmiyyətlər sıx-sıx bağlanmış, dini-siyasi məzmunlu yazıları üzündən tez-tez nəzarətə alınmış, illərlə məhkəmə salonlarında süründürülmüş, dəfələrlə qısa və uzunmüddətli həbs olunmuş, hətta ömrünü inzivaya çəkildiyi evində əfv gözləyə-gözləyə məhkum kimi başa vurmuşdur.

Nəcib Fazilin bütövlükdə ədəbi-bədii, o cümlədən poetik yaradıcılığını iki böyük dövrə ayırmaq olar: I dövr onun ilk şeirlərinin dərc edildiyi 20-ci illərin əvvəllərindən 30-cu illərin ortalarına qədərki dönəmi əhatə edir. II dövrə ədibin 30-cu illərin ortalarından 80-ci illərin əvvəllərinə qədərki yaradıcılığı daxildir. Bu bölgünün

müəllifi Nəcib Fazilin özüdür. Sənətkar 1965-ci ildə qələmə aldığı "Böyük Qapı" (bu əsər 1974-cü ildə "O və mən" adı ilə ikinci dəfə nəşr edilmişdir) kitabında öz həyatı və ədəbi fəaliyyətini iki böyük dövrə ayırır və bunu birmənalı olaraq mürşüdü Şeyx Əbdülhakim Arvasi ilə tanış olduğu tarixi günlə (1934) əlaqələndirir. İki hissədən ibarət olan kitabın fəsil adları da bunu təsdiq edir: "Tanıyıncaya qədər" və "Tanındıqdan sonra".

Nəcib Fazilin ədəbi yardıcılığa başladığı 20-ci illərin əvvəlləri – 30-cu illərin ortalarında türk poeziyasında söz sahibi olan şairlər az deyildi. Bir tərəfdən klassik Osmanlı poeziyasının davamçıları, "Tənzimat", "Sərvəti-fünun", "Fəcri-ati" ədəbi məktəblərindən yetişmə, lakin öz novatorluqları, forma və məzmun yenilikləri, təzə üslubları ilə də seçilən Əbdülhəqq Hamid, Yəhya Kamal, Mehmet Akif, Əhməd Haşim, Cənab Şəhabəttin, Rza Tofiq kimi məşhur sənətkarlar, digər tərəfdən Ziya Göyalp və Mehmet Əminin başlatdıqları "Milli ədəbiyyat" cərəyanının təmsilçiləri, "hecanın beş şairi" adı verilən Faruk Nafiz, Orxan Seyfi, Xalid Fəxri, Enis Behiç, Yusif Ziya kimi ədəbi ictimaiyyətdə adları yaxşı tanınan şairlər yazıb yaradırdılar. Eyni dönəmdə türk poeziyasında Nəcib Fazilin gənc müasirləri Nazim Hikmət, Kəmaləddin Kami, Əhməd Qüdsi, Əhməd Həmdi də ilk uğurlu addımlarını atırdı.

Türk poeziyasının ümumi mənzərəsi içərisində Nəcib Fazilin yeri haqqında onun tədqiqatçıları "nevi-şahsına münhasır" ("şəxsən özünəməxsus") ifadəsini işlədirlər. Bu, həqiqətən, belədir. Onun ədəbi-bədii yaradıcılığı bənzərsizdir. Ustadın çağdaş türk poeziyasında ədəbi hadisə sayılan və onun bütün şeirlərinin toplandığı "Çilə" kitabına nəzər salmaqla sənətkarın "özünəməxsusluğunun" nə demək olduğunu aydınlaşdırmaq mümkündür. Fikrimizcə, Nəcib Fazilin bütün yaradıcılığının ideya-məzmun kodu, mahiyyət və mündəricəsinin açarı, sənət anlayışının şifrəsi müxtəlif leksik-semantik anlamlı, burada isə sufi mənasını irəlidə açmağa çalışacağımız "çilə" kəlməsindədir.

Nəcib Fazil "Çilə" şeirini 1939-cu ildə yazmışdır. Uzun illər sonra eyni adlı kitab nəşr etdirmişdir (1962). Daha sonra özünün digər bütün şeir kitablarından – "Hörümçək toru", "Kaldırımlar", "Mən və Ötəsi", "Sonsuzluq karvanı", "Şeirlərim" və "Əssalam"-dan seçmələri "Çilə" adı altında yenidən tək cilddə (1974) toplayıb, yerdə qalan şeir kitablarına müəlliflik hüququndan imtina etmişdir. "Mal sahibi mən isəm, bunları istəmədiyim, tanımadığım və zibilliyə atdığım bilinsin…" – deyərək bu kitabdakılardan başqa heç bir şeirinin ayrılıqda çap edilməsini, yaxud başqa bir kitaba salınmasını istəməmişdir. Həmin kitabı anasına ithaf edən sənətkar onun mündəricatı və tərtibatını da özü vermişdir. Kitabın Türkiyənin məşhur nəşriyyatı Yapı Kredi Yayınları tərəfindən buraxılan sonuncu nəşrinin fəsilləri belə adlanır: "Şeirlərim və şairliyim" adlı Təqdimat, Allah (bu fəslin ilk şeirinin adı "Çilə"dir), İnsan, Ölüm, Şəhər, Təbiət, Qadın, Qorxu, Daüssıla (Vətən həsrət), Ukde (Qüssə), Hafakan (Ürək döyüntüləri), Təcrid, Qəhrəman-lar, Dava və cəmiyyət (1).

Əlbəttə, bu, Ustadın qərarı idi və onu heç kəs dəyişdirə bilməzdi. Lakin fikrimizcə, bu qərar yeni deyildi və Nəcib Fazil hələ 35 il əvvəl "Çilə" şeirinin özündə buna işarə etmiş, "Fikir əzabından böyük işgəncə" olmadığını vurğulayaraq şairliklə sənətkarlığı bir-birindən ayırmışdı. O, şairliyi "cücələrə" – cılız, cırtdan adamlara vermiş, "böyük sənətkarlıqda" özünün gözü olduğunu ifadə etmişdi. Şübhəsiz ki, buradakı "sənətkarlıq" termini ilə nəzərdə tutulan məfhum ədəbi yaradıcılıq deyil. Ustad nəyi nəzərdə tutduğunu şeirin bütün misralarına, ruhuna, şüuraltı mətninə hopdurub. Bu bir missiyadır və bu vəzifəni ona Yaradan verib: *"Qeyblərdən bir səs*

*gəldi bu adam // Gəzdirsin boşluğu ənsə kökündə".* Bu böyük missiyanın yerinə yetirilməsi üçün poeziya kifayət deyildi. Bizcə, Nəcib Fazilin poeziyanın Ustad taxtında ikən onu tərk edib dramaturgiyaya, publisistikaya və fəlsəfəyə yönəlməsinin kökündə də bu yatır! Sənətkarın sonrakı yaradıcılığı boyunca qələmə aldığı bütün əsərlərdə işlədiyi mövzuların hamısı bu şeirdəki sufi-fəlsəfi hikmətindədir: "İnsan kimdir, hardan gəlib hara gedir" sualının tək cavabı insanın öz içində gizlidir. Onu "təbiətdə, cəmiyyətdə" axtarmaq boş bir məşğulliyətdir: *"Boşuna gəzmişəm, yox təbiətdə // İçimdəki qədər eniş və çıxış."* İnsan özünü axtarırkən içindəki "cövhəri" kəşf edəcək, qeyd-şərtsiz qulu olduğu Allah və onun Rəsuluna, İslama sığınacaq! Bütün kainatın Əfəndisi insan, insanın Əfəndisi, Qurtarıcısı Allahdır. "Çilə" şeirindəki bütün simvollar, ölüm və həyat, cənnət və cəhənnəm, şüur və şüuraltı, röya və həqiqət, reallıq və irreallıq, kainat və sonsuzluq və nəhayət, dəlilik və dahilik kimi fəlsəfi paradiqmalar Nəcib Fazilin bütün digər əsərlərində də var!

"Çilə" kitabının taleyindəki paradoksallıq bununla qurtarmır. Kitaba adını verən şeirin nəşr ili II Dünya müharibəsinin başladığı ildir. İllərin üst-üstə düşməsi isə təsadüfi sayıla bilməz. Şeirin adı bunu təkzib edir. İş burasındadır ki, Nəcib Fazilin işlədiyi və "Çərçivə" rubrikası altında müntəzəm köşə yazıları dərc etdirdiyi "Son Telqraf" qəzetində baş redaktor Ədhəm İzzətin əksinə olaraq o, "kahinlik" edərək daha savaş çıxmadan çox-çox əvvəl Dünya müharibəsinin qaçılmaz olduğunu və tezliklə başlayacağını irəli sürmüş, öncəgörmə qabiliyyəti nümayiş etdirmişdi. Bəzilərinə görə "Çilə" şeirindəki bir-iki misra da bu müharibədən xəbər verirdi: *"Pəncərəyə qaçdım: Qızıl qiyamət! // Dediklərin çıxdı, ağbirçək bacı!"*, yaxud da *"Bir bardaq su kimi çalxandı dünya // Söndü istiqamət, yıxıldı boşluq".* 1 sentyabrdan sonra bütün ədəbiyyat qəzetləri öz səhifələrində həmin "Çilə" şeirini dərc etmiş, "Son Telqraf"ın tirajı isə bir günün içində 5-6 mindən 35-40 minə yüksəlmişdi.

Başdan-ayağa Şərqli düşüncəsi, islam fəlsəfəsi ilə yazılmış kitaba adını verən bu əsərə məqalələrinin birində toxunan tanınmış ədəbiyyatçı-publisist Bəşir Ayvazoğlu qeyd edir ki, klassik Qərb musiqisini dərindən bilən və sevən Nəcib Fazil "Çilə" əsərini dörd hissəli simfoniya formasında qələmə almışdır. Hər kəsin "Çilə" adıyla bildiyi şeirin ilk adı "Simfoniya" imiş və "Allegro", "Adagio", "Andante" və "Final" adlı dörd hissədən ibarətmiş. Publisist xatırladır ki, Ustadın öz səsindən şeirlərinin yazıldığı bir plastinkada fon müsiqisi olaraq klassik Qərb simfoniyasindan parçalar səsləndirilir (2).

"Çilə" sözü farscadan türkcəyə keçmişdir. Fars dilindəki "çihle" (qırx günlük müddət) kəlməsi osmanlı türkçəsində "çilə", yaxud "çillə" şəklində işlədilmiş, müasir türk dilinin orfoqrafiyasında "çilə" şəklində sabitləşmişdir. Bu sözün bütün müstəqim və məcazi mənalarını, siqlətli semantik yükünü sənətkarın həyatında və ədəbi fəaliyyətində açıq mətn, yaxud da simvollar şəklində müşahidə etmək mümkündür. Belə ki, "çilə" – əziyyət, əzab, zəhmət, sıxıntı deməkdir. Bu mənada "çilə" sanki Sənətkarın ömrünü xarakterizə edən rəmzi atributlardan biri kimi çıxış edir. Ədibin 30-cu illərin ortalarından sonrakı həyatı əziyyət və sıxıntı içərisində keçmişdir. Statistik bilgilərə görə, Nəcib Fazil haqqında verilmiş məhkumiyyət qərarlarının cəmi 101 ilə bərabərmiş!

"Çilə" – nəfs tərbiyəsi və ibadət deməkdir. Hər hansı bir təriqətə girmək istəyən adam əvvəlcə bir yerə qapanır (içərisində bir dəri, yaxud səccadə və bir "Qurani-Kərim" olan bu məkana "çiləxana" adı verilir), "çiləyə girir" (yəni "çiləkeş" olur), az miqdarda yemək və su ilə kifayətlənərək, çox az yataraq 40 gün (bəzi təriqətlərdə bu müddət daha da uzun olur) gecə-gündüz ibadətlə, "Quran"ı qiraətlə məşğul olur. Bu

40 günün tamamında “çilədən çıxır”. Bu, sufi dərviş olmaq istəyənin imtahana, sınağa çəkilməsi-dir. Nəcib Fazil 40 gün yerinə, ilkin olaraq 7-8 il (Əbdülhakim Arvasi ilə bərabər olduğu dövr!), daha sonra isə bir ömür boyu “çilə çəkmiş”, “çilə doldurmuş”, poetik dünyasında öz içinə qapanaraq özünü xarici aləmdən təcrid etmiş, beləcə, “çiləkeşlik” imtahanını uğurla vermişdir: *“Hər fikir, hər inanış tək mövsümlük vəssalam // Zaman və məkan üstü yeganə rejim İslam”.*

Yaxud da başqa bir vəsilə ilə siyasi bir partiya başqanına məktubunda dediyi kimi: “İçi alov-alov müsəlman, çölü pırıl-pırıl türk və içi çölünə hakim, çölü içinə kölə, yeni türk nəslinin maya çanağı olma əhilliyi hansı topluluqda isə mən oradayam. Allahın inayəti və Resulunun ruhaniyəti bu yoldakıların üzərində olsun.” Yeri gəlmişkən, Klassik türk ədəbiyyatında şairin sevgilisinin yolunda çəkdiyi əzab-əziyyət, izdirablar da “çilə çəkməyə”, “çilə doldurmağa” oxşadılmışdır. Bülbülün qızılgülün dərdindən həzin-həzin ötməsinə də “çiləmək” deyilmişdir (məşhur türk müğənnisi Əməl Sayının möhtəşəm “Çilə, bülbülüm, çilə” mahnısı yada düşür!).

Publisist Mehmet Niyazi də Nəcib Fazili, hər şeydən əvvəl, bir iman adamı olaraq xarakterizə edir, mürşüdündən öyrəndiklərini səxavətlə ötürdüyü çağdaş türk sənətkarla-rı Hilmi Oflaz, Sezai Ərkoç, Ərdəm Bayazit kimi xələflərini onun “metafizik övladları”, müridləri hesab edir. Onu gəncliyində içinə düşdüyü mənəvi-psixoloji girdabdan Əbdülhakim Arvasinin uzatdığı kəndir xilas etsə də, sonrakı həyatı şairi yenidən burulğanın içinə çəkib saldığını vurğulayır. İslami bir yola girdiyi üçün sənət və fikir çevrələri ilə bütün bağlarının qopduğunu, müəllimlikdən atıldığını, bank məmurluğu işindən azad edildiyini, əsərlərinin məktəb dərsliklərindən çıxarıldığını deyir. Bütün bunlar doğrudur. Lakin ən doğru olan budur ki, bu məşəqqətə mətanətlə dözən, fərd və cəmiyyət üçün mənəviyyatın nə demək olduğunun idrakında olan Nəcib Fazil bir dəfə də olsun peşmançılıq hissi keçirmədi, öz doğru bildiyi yolda – Allah və Rəsulu yolunda yürüdü, Mütləq Həqiqət uğrunda savaşdı, çünki hesab adamı yox, iman adamı idi.(3)

Nəcib Fazil ruhuyla, qanıyla şairdir. Bu baxımdan onun poeziyası, daha doğrusu, poetik dühası Fransada qısamüddətli təhsil aldığı dövrdə yaradıcılıqları ilə tanış olma fürsəti yaxaladığı, sonralar özünün də dəfələrlə rəğbətlə bəhs etdiyi və bəyəndiyini, təsirləndiyini söylədiyi XIX əsrin Şarl Bodler, Artur Rembo, Fridrix Hölderlin, Henri fon Kleyst kimi şairlərinə yaxındır. Məlumdur ki, Qərbin öz həyat tərzləri ilə seçilən bu sənətkarları öz şair ömürlərini “qeyri-adi” yaşamış, elə “qeyri-adi” şəkildə də tamamlamışlar. Eyni çılğın ruha sahib gənc Nəcib Fazilin onlarla eyni qisməti paylaşmamasının (intihar etməməsi, dəli olmaması və səfilləşməməsinin!) tək səbəbinin yuxarıda geniş şəkildə üzərində dayandığımız tarixi görüş olduğu və Ustadın dörd əllə Allaha sarılmasının və İslama sığınmasının həm də bundan qaynaqlandığı söylənilir. Sənətkarın Əbdülhakim Arvasiyə “Qurtarıcım, xilaskarım!” deməsi də buna işarət eləyir. Bu xüsusda ikinci bir versiya şairin gənclik illərinin dostu, görkəmli yazıçı Minə Urganın “Bir dinozavrın xatirələri” kitabında yer alır. Minə xanımın yazdığına görə, üzündəki diki doktorlar müalicə edə bilmədikləri üçün Nəcib Fazil bir xocaya (mollaya) gedir və bir üfürüklə bu mərəzdən qurtulur, Allahın dərgahına bundan sonra bağlanır.

Nəcib Fazilin şeirindəki ahəng və səs ruhi bir dərinlikdən gəlir. O dərinlikdə isə ölüm, qorxu, sevinc, şübhə, şəfqət, mərhəmət, hirs-qəzəb kimi bəşəri hisslər, sıxıntılar yer alır. Ruhi sıxıntı, psixoloji böhran motivlərini saysız-hesabsız şair öz əsərlərində işləmişdir. Lakin digər şairlərdə bu ruhi sıxıntıların qaynağı, yaradıcısı kimi, əsasən,

sosial səbəblər göstərilir. Ustadın poeziyasında ruhi təlatümlər daha çox metafizik mahiyyət daşıyır. O, şeirə fəlsəfə və düşüncəni hopdurur, misralarını bunları əks etdirəcək simvollarla yoğurur. Kəlmələrlə zərgər kimi davranır, onları qiyafədən qiyafəyə bürüyür, sözlərə onların daşıya biləcəkləri qədər məna, semantik siqlət yükləyir.

Nəcib Fazilin bütün əsərlərində vurğulanan başlıca ideya budur ki, insan alın yazısı, müqəddərat hikmətiylə kainatın mehvərinə oturdulmuşdur. Kainatın bütün sirlərini çözmək, gizlinlərinə aşina olmaq mümkün olmadığı kimi, insanın da sirlərini axıra qədər anlamaq, dərk etmək imkan xaricindədir. Hər səfərində bu sirrə vaqif olduğumuzu zənn etdiyimiz anda bir yeni məchulla qarşılaşırıq. Yaradandan başqa insanın içəri dünyasını heç kim görə bilmir. Çünki bəşər övladının cismani qəlibinə tökülmüş mənəviyyat heç bir zaman tam açılmayaraq kodlaşdırılmışdır. Qeyd edək ki, sənətkarın bütün əsərlərinin leytmotivini bir ilahi gücə dayanan üstünlük və qurtuluş vədi, fəlsəfi ruhaniyyət təşkil edirdi.

Nəcib Fazil şeirin əsas qayəsinin Mütləq Həqiqəti axtarmaq olduğunu irəli sürsə də, poeziyada "sənət üçün sənət" prinsipindən qətiyyən əl çəkmir, yalnız "Allahı və Allah davasını" xalqa, topluma çatdırdığı ölçüdə "cəmiyyət üçün sənət" anlayışını qəbul edir. Sənətdə özünü, öz yerini və missiyasını xarakterizə edərkən də "Məni də Allah və Peyğəmbər divanəsi olaraq xatırlayın", – deyir.

## ƏDƏBİYYAT


1. Kısakürek Necip Fazıl. Çile. Bütün şiirleri. İstanbul: 2004, 472 s.
2. Ayvazoğlu Beşir.Topkapı Sarayı ve Batı Müziği. "Zaman" gazetesi, İstanbul, 2009, 16 Temmuz.
3. Niyazi Mehmet. Necip Fazıl Bir İman Adamıydı. "Zaman" gazetesi, İstanbul, 2009, 08 Haziran .


## ПОЭЗИЯ НЕДЖИБ ФАЗЫЛА КЫСАКЮРЕК


**А.А.РАСУЛОВ**


## РЕЗЮМЕ


В статье рассматривается поэтическое творчество известного турецкого поэта и драматурга XX века Неджиб Фазыла Кысакюрек (1905-1983). К литературному анализу подвергается его сборник стихов «Чиле» («Испытание»), где он изложил также своё поэтическое кредо в «Поэтике», приложенной к книге.


## POETRY OF NEDZHIP FAZYL KYSAKUREK


**A.A.RASULOV**


## SUMMARY


The article is devoted to poetic creativity of the known Turkish poet and the playwright of the XX-th century Nedzhip Fazyl Kysakurek (1905-1983). To the literary analysis its collection of verses "Chile" ("Test") where he has stated also the poetic credo in "the Poetics" enclosed to the book is exposed.